**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (bundan sonra – Agentlik) Beynəlxalq əlaqələr departamenti (bundan sonra – Departament) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nə (bundan sonra – Nizamnamə) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyin strukturuna uyğun yaradılan Agentliyin Aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Agentliyin Nizamnaməsini, Agentliyin İdarə Heyətinin qərarlarını, Agentliyin İdarə Heyəti sədrinin (bundan sonra – Sədr) əmr və sərəncamlarını, icbari tibbi sığorta sahəsində mövcud olan qanunvericilik aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament fəaliyyətini Agentliyin digər struktur bölmələri ilə əlaqəli həyata keçirir.

1.4. Departamentin tərkibində Beynəlxalq təşkilatlarla iş şöbəsi və Xarici dövlətlərlə əlaqələr şöbəsi fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

2.1. Departamentin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. icbari tibbi sığorta sahəsində xarici dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi və onun əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlər görmək;

2.1.2. icbari tibbi sığorta sahəsində beynəlxalq təcrübəni öyrənmək və müvafiq sahənin inkişafı məqsədilə Agentliyin adından tədbirlər görmək;

2.1.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Departamentin vəzifələri

3.1. Departamentin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq ümumi vəzifələri aşağıdakılardır:

3.1.1. Hökumətlərarası komissiyaların və işçi qruplarının işində iştirak etmək;

3.1.2. Departamentin fəaliyyət istiqamətlərinə dair normativ hüquqi aktların layihələrinin və icbari tibbi sığorta sahəsində beynəlxalq sənədlərin (saziş, anlaşma memorandumu, niyyət protokolu, müqavilə, dövlət büdcəsi, kreditlər, qrantlar, texniki yardımlar və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilən

beynəlxalq investisiya layihələri üzrə sənədlər) layihələrini hazırlamaq və müvafiq orqanlara (qurumlara) baxılması üçün göndərilməsini təşkil etmək, o cümlədən bununla bağlı danışıqlarda və müzakirələrdə Agentliyi təmsil etmək;

3.1.3. icbari tibbi sığorta sahəsində donor təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsi üzrə tədbirlər görmək, donor təşkilatlarla və beynəlxalq maliyyə institutları ilə danışıqlar aparmaq, onların hesabına maliyyələşən kredit, qrant, texniki yardım və bu kimi digər alətlərdən yararlanmaq üçün müvafiq təkliflər vermək, birgə layihələrin həyata keçirilməsini əlaqələndirmək və layihələrin icrasına nəzarət etmək;

3.1.4. xarici tərəfdaşlardan daxil olan əməkdaşlıq təkliflərini araşdırmaq və Agentliyin rəhbərliyini bu barədə məlumatlandırmaq, əməkdaşlığın qurulması və inkişaf etdirilməsi ilə bağlı təkliflər hazırlamaq, müvafiq danışıqların və qarşılıqlı müzakirələrin aparılmasını təşkil etmək və onlara rəhbərlik etmək;

3.1.5. icbari tibbi sığorta sahəsində ölkənin maraqlarının qorunması və təmin edilməsi məqsədilə beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş tədbirlərdə iştirak etmək və Agentliyin sədri ilə razılaşdırılmaqla ölkə daxilində və xaricdə təşkil olunan beynəlxalq tədbirlərdə iştirakı nəzərdə tutulan Agentliyin əməkdaşlarından ibarət olan nümayəndə heyətinin səfərlərini təşkil etmək;

3.1.6. müvafiq sahədə imzalanmış beynəlxalq sənədlərin reyestrini aparmaq, öhdəliklərin və nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarət etmək, bu istiqamətdə müvafiq işçi qrupların yaradılması haqqında təkliflər vermək;

3.1.7. Agentliyin beynəlxalq fəaliyyətlərinə nəzarət etmək, işçilərinin ezamiyyə səfərlərinin və beynəlxalq tədbirlərin təşkilinin həyata keçirilməsinə dair təkliflər vermək;

3.1.8. Agentliyin struktur bölmələrinin, vahid beynəlxalq əməkdaşlıq fəaliyyətini təşkil etmək və onlara rəhbərlik etmək;

3.1.9. xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəlikləri, beynəlxalq və regional təşkilatlar, sahə üzrə kommersiya və qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan transmilli, beynəlxalq və yerli şirkətlər, ictimai birliklər, işgüzar klublar, qeyri-hökumət təşkilatları, universitetlər, tədqiqat institutları ilə qarşılıqlı əlaqələrin qurulması ilə bağlı tədbirlər görmək və öz səlahiyyətləri çərçivəsində bu istiqamətdə fəaliyyətə rəhbərliyi və nəzarəti həyata keçirmək;

3.1.10. xarici dövlətlərin səhiyyə sahəsində fəaliyyət göstərən qurumları və diplomatik nümayəndəlikləri ilə birgə icra olunan layihələrin, tədbir və digər fəaliyyətlərin koordinasiyasını, səmərəliliyinin qiymətləndirilməsini həyata keçirmək, müvafiq məsələlərin, həmçinin Agentlik tərəfindən dəvət olunmuş qonaqların təşkilati-protokol məsələlərini həll etmək;

3.1.11. icbari tibbi sığorta sahəsi üzrə dünyada baş verən prosesləri və tendensiyaları araşdırmaq və təhlil etmək;

3.1.12. dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.13. Agentliyin beynəlxalq inteqrasiyasının və bu sahədə davamlı inkişafının sürətləndirilməsi üçün strateji istiqamətlərə dair təkliflər vermək;

3.1.14. Agentlik tərəfindən beynəlxalq təşkilatlar və beynəlxalq maliyyə institutları ilə aparılacaq danışıqlar və bu sahədə ölkəmizdə keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlərə dair müvafiq rəy və təkliflər vermək;

3.1.15. sədr və sədr müavininin xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik və ticarət nümayəndəlikləri, beynəlxalq təşkilatların və xarici şirkətlərin rəhbərləri və nümayəndələri ilə görüşlərini planlaşdırmaq, təşkil etmək və protokollaşdırmaq;

3.1.16. Departamentin strukturuna daxil olan şöbələrin iş planlarını nəzərdə tutulmuş qaydada tərtib etmək və icrasına nəzarət etmək;

3.1.17. Departamentin iş planını, fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq;

3.1.18. sədr tərəfindən Departamentə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

4.1. Departament öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Agentliyin rəhbərliyinin razılığı ilə Departamentin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı digər dövlətlərin müvafiq sahəvi dövlət və özəl qurumları, Azərbaycan Respublikasının digər dövlət hakimiyyət orqanları ilə əlaqə yaratmaq;

4.1.2. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək üçün Agentliyin struktur bölmələri, digər müəssisə, idarə və təşkilatlardan, onların səlahiyyətli şəxslərindən zəruri materiallar, məlumatlar və sənədlər almaq;

4.1.3. Agentliyin beynəlxalq əlaqələrinin inkişafı, həmçinin Departamentin işinin təkmilləşdirilməsi üçün rəhbərlik qarşısında təkliflərlə çıxış etmək;

4.1.4. Departamentin funksiyalarına aid məsələlər üzrə keçirilən müzakirələrdə, qanunvericiliyin tələblərini nəzərə almaqla Agentlikdə yaradılan komissiyaların, işçi qruplarının, məşvərətçi və əlaqələndirici orqanların işində iştirak etmək;

4.1.5. fəaliyyət istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və tətbiqi ilə bağlı təkliflər vermək;

4.1.6. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.7. Departamentin işçilərinin ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Beynəlxalq təşkilatlarla iş şöbəsi

5.1. Beynəlxalq təşkilatlarla iş şöbəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

5.1.1. icbari tibbi sığorta sistemi və səhiyyə xidmətlərinin tətbiqi və təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət göstərən beynəlxalq təşkilatlar ilə əməkdaşlıq əlaqələrinin qurulması və genişləndirilməsini təmin etmək və Agentliyin beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafı və təkmilləşdirilməsi istiqamətində Departament rəhbəri qarşısında təkliflərlə çıxış etmək;

5.1.2. müvafiq beynəlxalq təşkilatların icbari tibbi sığorta sisteminin əlçatanlığı və təqdim olunan tibbi xidmətlərin keyfiyyətinin təkmilləşdirilməsinə yönələn tövsiyə və sənədlərin təhlilini həyata keçirmək;

5.1.3. beynəlxalq təşkilatların səhiyyə sahəsi üzrə fəaliyyət göstərən ekspertlərinin ölkəyə səfərlərinin təşkili və koordinasiyasını təmin etmək;

5.1.4. beynəlxalq təşkilatların nümayəndələri ilə Agentlik arasında keçirilən görüşlərin təşkilati-protokol məsələlərini həll etmək;

5.1.5. Agentlik nümayəndələrinin beynəlxalq təşkilatların iclas və tədbirlərində iştirakı ilə bağlı məsələləri digər məsul departamentlər ilə birgə əlaqələndirmək;
5.1.6. beynəlxalq təşkilatların elan etdiyi qrant müsabiqələri çərçivəsində Agentlik tərəfindən təqdim ediləcək layihə təkliflərinin hazırlanması və təqdim olunmasını koordinasiya etmək;
5.1.7. icbari tibbi sığorta sahəsində beynəlxalq təşkilatlar ilə imzalanması nəzərdə tutulan memorandum, müqavilə və digər razılaşmaların mətnlərini hazırlanmasında iştirak etmək;
5.1.8. Azərbaycan Respublikası tərəfindən icbari tibbi sığorta sahəsində beynəlxalq təşkilatlara təqdim olunan hesabat, məruzə və digər müvafiq sənədlər üçün zəruri məlumatların hazırlanması və sistemləşdirilməsini təmin etmək;
5.1.9. beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində icra olunan layihələr, tədbir və digər fəaliyyətlərin koordinasiyasını, səmərəliliyinin monitorinqini və qiymətləndirilməsini həyata keçirmək;
5.1.10. fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq və rəhbərliyə təqdim etmək;
5.1.11. şöbənin əməkdaşları arasında iş bölgüsünün aparılmasına, işlərin görülməsinə nəzarət etmək və daxili nizam-intizam qaydalarına riayət edilməsini təmin etmək;
5.1.12. Departament rəhbəri tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 6. Xarici dövlətlərlə əlaqələr şöbəsi

6.1. Xarici dövlətlərlə əlaqələr şöbəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır:
6.1.1. icbari tibbi sığorta siyasətinin həyata keçirilməsi və əlaqələndirilməsi funksiyalarını həyata keçirən xarici dövlətlərin qurumları ilə işin təşkili və koordinasiyasını təmin etmək;
6.1.2. səlahiyyətləri daxilində Azərbaycan Respublikası və xarici dövlətlərin Hökumətlərarası Komissiyaları çərçivəsində icbari tibbi sığorta sahəsində fəaliyyət və müzakirələrdə Agentliyi təmsil etmək;
6.1.3. xarici dövlətlərin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlikləri ilə qarşılıqlı əlaqələr qurmaq;
6.1.4. icbari tibbi sığorta sisteminin tətbiqi və təkmilləşdirilməsi sahəsində xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək və milli səviyyədə tətbiqi imkanlarını araşdırmaq;
6.1.5. xarici dövlətlərin səhiyyə sahəsində fəaliyyət göstərən qurumları və diplomatik nümayəndəlikləri ilə birgə icra olunan layihələrin, tədbir və digər fəaliyyətlərin koordinasiyasını, səmərəliliyinin monitorinqini və qiymətləndirilməsini həyata keçirmək, görüşlərin keçirilməsinə dair təşkilati-protokol məsələləri həll etmək;
6.1.6. icbari tibbi sığorta çərçivəsində təqdim olunan tibbi xidmətlərin təkmilləşdirilməsi və genişləndirilməsi məqsədilə xarici dövlətlərin müvafiq təşkilatları, diplomatik nümayəndəlikləri və özəl sektor qurumları ilə əməkdaşlıq əlaqələrini qurmaq və genişləndirmək;
6.1.7. xarici dövlətlərin müvafiq qurumları ilə imzalanması nəzərdə tutulan memorandum, müqavilə və digər razılaşmaların mətnlərini hazırlanmasında iştirak etmək;
6.1.8. Agentliyin xarici dövlətlərlə əlaqələrinin inkişafı və genişləndirilməsi istiqamətində Departament rəhbəri qarşısında təkliflərlə çıxış etmək;

6.1.9. fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq və rəhbərliyə təqdim etmək;

6.1.10. şöbənin əməkdaşları arasında iş bölgüsünün aparılmasına, işlərin görülməsinə nəzarət etmək və daxili nizam-intizam qaydalarına riayət edilməsini təmin etmək;

6.1.11. Departament rəhbəri tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 7. Departamentin fəaliyyətinin təşkili

7.1. Departamentin strukturu və işçilərinin sayı sədr tərəfindən təsdiq edilir. Departament bilavasitə sədrə tabedir və onun qarşısında hesabat verir. Sədr tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs Departamentin fəaliyyətinə müdaxilə edə bilməz.

7.2. Departamentin fəaliyyətinə sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Departament rəhbəri rəhbərlik edir. Departament rəhbəri Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament rəhbəri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdiri və ya sədr tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

7.3. Departament rəhbəri:

7.3.1. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

7.3.2. tabeliyində olan işçilər arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

7.3.3. Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

7.3.4. Departamentin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi üçün Agentliyin rəhbərliyinə təqdimatlar verir;

7.3.5. Departament tərəfindən vəzifələri yerinə yetirmək üçün səlahiyyətləri daxilində Agentliyin digər struktur bölmələrindən zəruri məlumat və sənədləri alır;

7.3.6. daxil olan ərizə, şikayət və təkliflərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

7.3.7. Departamentdə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

7.3.8. Departamenti təmsil edir.

7.4. Şöbələrə sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Departamentin sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər işçiləri vardır.

7.5. Departamentin hər bir işçisi əmək müqaviləsində nəzərdə tutulmuş vəzifələrin vaxtında yerinə yetirilməsinə, həmçinin, hazırladığı, araşdırdığı və imzaladığı sənədlərin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Agentliyin İdarə Heyətinin qərarlarına, sədrin sərəncam və əmrlərinə uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.